**Ən uca zirvəyə aparan yol**

1998-ci il mayın 10-da Azərbaycan alpinistləri Qafqaz sıra dağlarının şimal hissəsində, dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən zirvəni fəth etmiş və onu ulu öndər Heydər Əliyevin anadan olmasının 75 illiyi münasibətilə «Heydər zirvəsi» adlandırmışlar.

Gənclər və İdman Nazirliyi və respublika Alpinist-Turist Klubunun təşkilatçılığı ilə bir sıra dövlət qurumlarının, eləcə də Vergilər Nazirliyinin əməkdaşlarından ibarət qrup ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü ilə əlaqədar - mayın 7-də Fəxri xiyabanda ulu öndərin xatirəsini yad etmiş, məzarı önünə gül dəstələri qoymuşlar. Daha sonra yürüş iştirakçıları Şəhidlər xiyabanına gəlmiş, ölkəmizin müstəqilliyi uğrunda canlarından keçən Vətən övladlarının xatirəsini yad etmiş və oradan «Heydər zirvəsi»nə yola düşmüşlər. Onlar mayın 10-da «Heydər zirvəsi»nə qalxmış, ulu öndərimizin orada qoyulmuş büstünü ziyarət etmişlər.

Bu il yürüşdə Vergilər Nazirliyini Pərviz Həsənov, Sevər Musayeva, Rəşad Seyidli və Azər Məmmədzadə təmsil etmişlər. Onlar ulu öndərin adını daşıyan zirvəyə çıxmaq şərəfinə nail olduqlarından böyük qürur hissi keçirdiklərini bildirmişlər.